**“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə Dövlət Proqramı” (2007-2010-cu illər)**

2009-cu ildə Respublikanın bir sıra məktəblərində “Sağlam həyat tərzi” mövzusunda seminar-treninqlər keçirilmişdir. Treninqlərin məqsədi regionlarda sağlam həyat tərzi ilə bağlı kütləvi maarifləndirmə işlərinin aparılması, AİDS-in yayılmasının qarşısının alınması, narkomanlığa qarşı mübarizə və s. olmuşdur.

2011-ci ildə BMT-nin Əhali Fondu (UNFPA) ilə birgə regionlarda həyata keçirilmiş “Gənc nəslin sağlam düşüncə tərzinin və humanizm prinsiplərinin inkişaf etdirilməsi” layihəsi çərçivəsində sağlam həyat tərzi, narkotiklərsiz həyat mövzularında maarifləndirici mühazirələrin təşkili edilmişdir. Mühazirələr zamanı həmçinin problemlərlə bağlı iştirakçıların sualları cavablandırılmışdır.

Eyni zamanda “Narkotiksiz həyat. Sağlamlığın öz əlindədir” mövzusunda buklet hazırlanmışdır.

**Narkomaniya ilə mübarizə çərçivəsində görülmüş işlər.**

8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində Respublikanın şəhər və rayonlarında yayımlanan regional televiziyalarda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi müvafiq olaraq, yerli idarəedici orqanlar ilə birgə “Qadın və cəmiyyət” adlı verilişlər hazırlamışdır. Verilişlərdə narkomaniya və onun törətdiyi fəsadlardan bəhs olunmuş, çıxış yolları müzakirə olunmuşdur.

Respublikanın bir sıra məktəblərində təcrübəli həkim-ginekoloqların iştirakı ilə “Sağlam həyat tərzi” və “Reproduktiv toxunulmazlıq hüququ” mövzusunda mühazirələr keçirilmişdir. Mühazirələrdə narkomaniyayla mübarizəyə dövlət qayğısı, narkotik vasitələrin və psixotrop maddələrin insanlara və cəmiyyətə vura biləcəyi zərərdən bəhs olunmuşdur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi “Dan” İB ilə birgə Respublikanın regionlarında “Hər gününü rahatlıqla yaşa” adlı təlim kursu keçirilmişdir. Təlimlərdə özünüdərketmə, ailə planlaşdırılması və şəxsi gigiyena mədəniyyəti, narkomaniya ilə mübarizə haqqında məlumat verilmiş, həmin problemlərlə bağlı təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Respublikanın regionlarında və uşaq evlərində gənc qızlar üçün narkomanlığın qarşısının alınması, sağlam həyat tərzinin təbliği ilə bağlı mübarizənin gücləndirilməsi məqsədilə “Gənc nəslin sağlam düşüncə tərzinin və humanizm prinsiplərinin inkişaf etdirilməsi” layihəsi çərçivəsində mühazirələr təşkil edilmişdir. Həmçinin “Narkotiksiz həyat. Sağlamlığın öz əlindədir” mövzusunda buklet hazırlanmışdır.

Narkomaniya ilə mübarizə kampaniyası çərçivəsində **“Narkomaniyaya YOX deyək”** adlı baner hazırlanmış, Mərkəzi İnşaatçılar prospektində bir illik yerləşdirilmişdir.